# Fermerlər və kənd təsərrüfatı məhsulları istehsalçıları ilə görüş



Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında rayon ərazisində fəaliyyət göstərən fermerlər və kənd təsərrüfatı məhsulları istehsalçıları ilə görüş keçirilmişdir. Tədbirdə çıxış edən Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru vəzifəsini müvəqqəti icra edən Namiq Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən kənd təsərrüfatının inkişafı, fermerlərin dövlət dəstəyi ilə əhatə olunması və aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsinə, kənd təsərrüfatında şəffaflığın artırılması, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və fermerlərin rifahının yüksəldilməsinə göstərdiyi diqqət və qayğıdan danışmışdır. Görüş zamanı fermerlərin üzləşdiyi çətinliklər, kənd təsərrüfatının inkişafı ilə bağlı problemlər və onların təklifləri diqqətlə dinlənilmiş, qaldırılan məsələlərin həlli istiqamətində müvafiq tədbirlərin görülməsinin vacibliyi qeyd olunmuş, fermerlərlə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

# Ağacəkmə aksiyası



Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq ili” ilə əlaqədar şəhər ərazisində ağacəkmə aksiyaları keçirilmişdir. Aksiya zamanı çoxlu sayda çinar və söyüd ağacları əkilmişdir.

# Pasxa bayramı

İsa peyğəmbərin dirilməsi münasibətilə qeyd edilən Pasxa bayramının qədim tarixi var. Bu bayram əslində bir az da Musa-İsa bayramıdır, onların xatirəsinədir.



İlk Pasxanı qədim yəhudilər İsa peyğəmbərin mövludundan 1500 il əvvəl israillilərin Musa peyğəmbərin başçılığı ilə Misiri tərk etməsi münasibətilə bayram ediblər.

Əhdi-ətiqdə Pesaxa - Pasxa yəhudi xalqının Misir köləliyindən qurtulduğunu göstərir. “Pesaxa” sözü qədim yəhudi dilində “çıxma”, “qurtulma” deməkdir.

Əhdi-Cədid Pasxası isə əvvəlcə İsa Məsihin ölümü haqqında xatirəyə həsr edilib. Bu bayramın vaxtı və mərasimləri xristian kilsəsi tərəfindən II əsrdə müəyyən edilib. V əsrdən etibarən isə indi qeyd edilən bayram ritualları formalaşıb.

Dünyanın müxtəlif hissələrində bir-birindən fərqli Pasxa adətləri olsa da, kilsə ayinləri, Pasxa bayramlaşması ümumi motivlərdir.

Slavyanlarda yumurta döyüşdürülməsi, Pasxa dovşanı, Pasxa oyun və festivalları kimi ənənələr də vardır ki, bu ənənələr də xristianlarla yanaşı, qeyri-xristian toplular arasında da geniş yayılıb. Ənənəyə görə, pravoslavlar cümə axşamı günü kuliç bişirir, axşam pasxa adlı yemək hazırlayır (bu, kəsmik və kişmişdən hazırlanan şirniyyatdır), şənbə günü onları kilsəyə aparır, şənbə günündən bazar gününə keçən gecə isə Pasxanın və İsanın Dirilməsi bayramının başlanmasını bildirən Xaç yürüşü edirlər. İsa peyğəmbərin Dirildiyi Müqəddəs Gün isə hamı pasxa süfrəsi arxasında əyləşir, bir-birini pasxa və kuliçə qonaq edir, yumurta döyüşdürür və bir-birini “İsa Dirildi!” kəlməsi ilə təbrik edir. Küçələrə çıxır, qarşılarına çıxan hər kəsi qucaqlayırlar.

Bütün dünyada olduğu kimi, Azərbaycanda yaşayan xristianlar da bu müqəddəs bayramı hər il təntənə ilə qeyd edirlər.

Pravoslav xristianlar bu bayramı aprelin 24-də, katoliklər isə aprelin 17-də qeyd edirlər. Pasxa bayramının tarixi hər il müxtəlif günlərə düşür. Buna səbəb bayramın Ay təqvimi ilə hesablanmasıdır. Pasxa həftəsi hər il aprelin 4-dən mayın 8-ə kimi yer dəyişir. Pasxa üçün əsas şərt, martın 21-nin, başqa sözlə gecə-gündüz bərabərliyinin tamam olması və Məsihin dirilmə gününün mütləq şəkildə bazar gününə düşməsidir. Bəzən yəhudilərin Pesax bayramına düşərsə, bir həftə əvvələ çəkilir. Bu il isə katoliklər Pasxanı 17 apreldə qeyd ediblər, pravoslavlar isə 24 apreli gözləyirlər.

12 aprel 2026-cı il tarixində Qəbələ rayon Nic qəsəbəsində Pasxa bayramı qeyd edilmişdir. “Cotari” alban-udi pravoslav kilsəsində keçirilmiş tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Alban-udi Xristianları İcmasının nümayəndələri, icmanın üzvləri, müxtəlif rayonlardan gələn çox sayda qonaqlar və qəsəbə sakinləri iştirak etmişdir. Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili və digər çıxış edənlər Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışmış, azsaylı xalqlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər. Sonda bayram münasibətilə şamlar yandırılmış, dualar oxunmuş və bayram konserti keçirilmişdir.

**İlahə EYVAZLI.**

# İməcilik keçirilmişdir



“Şəhərsalma və Memarlıq ili” çərçivəsində Qəbələ şəhər ərazisində növbəti iməcilik keçirilmişdir. İməcilik zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, ağaclar budanmış, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmışdır. Tədbirdə idarə, müəssisələrin kollektivləri və rayon könüllüləri iştirak etmişlər.

# Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar "Tarixi abidələrimizi tanıyaq və mühafizə edək" adlı tədbir keçirilib.

Tədbirdə vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, milli mədəniyyətimizin müasir dövrlə vəhdəti modelini yaradacaq, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün uğurla davam edən azərbaycançılıq məfkurəsi əsasında, milli ideologiyanın formalaşdırılması istiqamətində daha mükəmməl, uğurlu addıma başlanğıc olacaqdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, 2026-cı il "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ölkə ərazisində yerləşən bütün tarixi abidələr bir daha diqqətə gətiriləcək, memarlıq mədəniyyəti ənənələri yaşadılacaq, bu istiqamətdə yeni mühüm işlər görüləcək.

Yaşadığımız dövrə gəlib çatan bu abidələr hazırda çox qiymətli nümunələr kimi qorunur.

Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bütün bunlar xalqımızın milli kimliyinin, xalqımızın doğma torpağa, ecdadlarına bağlılığının bariz nümunəsidir.

Tədbir çərçivəsində Qəbələ rayon ərazisində yerləşən tarixi abidələr haqqında geniş məruzələr dinlənilib və video material nümayiş olunub.

QƏBƏLƏ səsi
qəzetinə
2026-cı ilin birinci yarısı üçün
abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 20 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*

# İTMİŞDİR

Qəbələ rayon Mıxlıqovaq kənd sakini **Hacıyev Laçın Qüdrət oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1000*